# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 245/11** **11 oktyabr 2013-cü il**

**“Audit üzrə 100 sual və cavab” sorğu kitabının nəşri barədə**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın “Audit xidmətlərinin təkmilləşdirilməsi” 13-cü istiqamətində müəyyən edilmiş bir sıra normativ aktlarının yenidən nəzərdən keçirilməsi, o cümlədən auditor xidmətinin inkişaf konsepsiyasının layihəsinin hazırlanması ilə əlaqədar mtodik göstərişlərə, təlimatlara və digər sənədlərə bir sıra əlavə və dəyişikliklər edilməsi qaçılmazdır. Bununla bağlı Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talııbovun Auditorlar Palatasının 2013-2015-ci illər üzrə iş planın və Palata Şurasının 2013-cü il üzrə iş planın - “Audit üzrə 100 sual və cavab” sorğu kitabının nəşri” barədə 6.1.5-ci və 18-ci müvafiq bəndlərində həmin sorğu kitabının 2013-cü il srentyabr ayında nəzərdə tutulmuş işləri 2014-cü ilə keçirilməsi barıədə ximəti məktubunu müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Audit üzrə 100 sual və cavab” sorğu kitabının nəşri”nin 2013-cü ildən 2014-cü ilə keçirilməsi barədə Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talııbovun xidməti məktubu nəzərə alınsın (əlavə olunur).
2. Auditorlar Palatasının 2013-2015-ci illər və Palata Şurasının 2013-cü il üzrə iş planlarının - “Audit üzrə 100 sual və cavab” sorğu kitabının nəşri” barədə 6.1.5-ci və 18-ci bəndlərinin icrası audit haqqında qanunvericiliyin təkmilləşdirilməsi həyata keçirildikdən sonra 2014-cü ildə yerinə yetilməsi məqsədəmüvafiq hesab edilsin.
3. Sədrin müşaviri A.Kərimova tapşırılsın ki, bu qərarın 2-ci bəndinə əsasən Palatanın 2013-2015-cü illər və Palata Şurasının 2013-cü il üzrə iş planlarında qeyd olunan “Audit üzrə 100 sual və cavab” sorğu kitabının nəşri” barədə 6.1.5-ci və 18-ci müvafiq bəndlərinin iş planlarından çıxarılmasını təmin etsin və bu məsələnin 2014-cü ilin iş planına daxil olunmasını nəzərdə tutsun.
4. Palatanın Aparatına (Q.Bayramov) tapşırılsın ki, bu qərarın Palatanın internet saytında yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**